FİRƏNGİZ KƏRİMZADƏ

# ÖLÜMÜN QANADINDA

QANUN NƏŞRİYYATI

## *2020*

Torpaq bütün tutqunluğunu sıxıb saxlamışdı özündə. Əvvəlcədən olacaqlardan xəbəri varmış kimi... Övladına bir şey olanda kilometrlərcə uzaqlığa baxmadan hər şeyi hiss edən ana kimiydi torpaq. Əslində elə əsl anamız da torpaq idi bizə. İlk yox, son eşqin yanında qalmağı kimi.

Əvvəl-axır hər kəsin son mənzili torpaq olur... İnananı da, inanmayanı da, vicdansızı da, mərhəmətlisi də qaça bilmir öz sonundan. Hara qaçsınlar ki?! Torpağın üstündə olanda hər əməli törədən insanın qaçmağa yerimi olar? O gün gələndə heç yıxılan uşağını əvvəlcə döyüb, sonra sağaldan analar da kömək ola bilmir balalarına. Bəlkə də, torpaq – üstündə gəzənlərin ən ağır dərdiydi, ona həsr olunan şeirlərin çoxu eşqlə yazılsa da. Gecə qəlb ağrısından yata bilməyənlərin qırx gün sonra yenidən aşiq olmağından bilirik biz bunları...

Ya analar? Onları kim əvəz edə bilərdi? Əslində insanları ayıran inanclar, ya da irqlər deyildi. Anaları idi. Ən pis olanı isə bir var, bir yox olan analardı... Cavad da bütün həyatı yerlə-yeksan olanda başlamışdı anasını axtarmağa. O gün Cavad üçün bütün nağılların ilk cümləsi dəyişilmişdi. Onun həyatında,

sadəcə, biri yox idi... Yəni heç kimi yox idi. Balaca Cavadın nağılı torpaq olmuşdu. Məktəbdən ac gəlib dəli kimi evin içində anasını axtaran uşaqlar sayağı düşmüşdü küçələrə. Danışsa da, keçmirdi, ağlasa da, keçmirdi, keçməzdi də... Başını qaldırıb baxdığı səmada da artıq tapa bilmirdi anasının xəyalını. O böyük qəbahəti toz- duman etmişdi göy üzünü.

Cavad da elə buna görə anasını axtarırdı, onun tərəfini tutsun, günahsız olduğunu söyləsin deyə. Qəlbini sakitləşdirəcək bir nəfər tapmayanda daha çox baxırdı göy üzünə...

– Bacarmayan, istəməyən adam elə indi sıralarımızı tərk edə bilər! – komandir sərt bir şəkildə xəbərdarlıq etdi.

Cavad hərəkətlərini sürətləndirdi. Onun beynindən min bir görüntü keçirdi yuxu kimi. O ən son odun sobasının kənarında əyləşib atasıyla söhbət edirdi. Nə zaman gəlib yerdə sürünməyə başlamışdı, bilmirdi...

– Xüsusi təyinatlılar yorula bilməz, cəld olun! – komandir yenidən qışqırdı. Sanki o, əsgərlərin fikirlərindən keçənləri başa düşüb kitab kimi oxuyurdu onları.

Gün boyu çəkən təlim sona çatmışdı. Cavad duşdan çıxıb aynanın qarşısında dayanaraq, yarıçılpaq bədəninə baxırdı. Bütün bölük Cavadın hər gün özüylə bu cür baxışmağına vərdiş etmişdi artıq. Kürəyin-

də, qolunda, dizində olan yara izlərinin sayı-hesabı yoxdu. Əlini ürəyinə qoydu, gözlərini yumdu. Digər əsgərlər tərəfindən bu mənzərə gülünc qarşılanırdı: hər gün eyni saatda, eyni güzgünün qarşısında, eyni mənzərə...

Qəlpənin uzaqdan gəlib tam ürəyini deşdiyini hiss etməyə çalışdı. Hə, qəlpə əynindəki zirehi, yeddi qat dərisini, sonra əzələsini dəlib keçir. Ən möhtəşəmi isə ürəyini tamamilə parçalamağı olur. Qəlpə ürəyini parçalayır və o yerə yıxılıb çabalamağa başlayır, hər kəs başına yığışır... Cavad bir an fikirdən ayıldı. Can verəndə kimin adını çağırmalı olduğunu düşünməyə başladı. Anası? Atası? Kamran? Ömür? Sübhan?

– Hamısın birdən deyə bilməyəcəm axı, mütləq bir nəfər olmalıdı. Son nəfəsimdə kimi çağırmalıyam? Kimdi ən əzizim?... Əslində hamısı.

“Yəqin ki, Kamran məndən inciməz. O məni həmişə başa düşərdi. Elə anam da inciməz məndən. Axı o, anadı. Analar övladlarından küsməzlər. Atamı deməsəm, ayıb olar. Bəs Ömür? O, yəqin ki, küsər. Başını aşağı salar, iri gözlərini yaşla doldurar, əlləriylə ətəyini sıxardı... Çağırsam, gələr? Bax buna əmin deyiləm. Amma atam mütləq gələr. Gəlib nə edəcək, məni dirildəcək? Yaxşısı, mən heç kimin ruhun incitməyim, ölüm öldüyüm yerdə...”

Ömür: “Yenə ən asan olan yolu seçmişdi aciz insan. Yenə ən zəif olan atılmışdı bir kənara”

– Yoldaş Əkbərli, yenə nə danışırsan öz-özünə?– Nihat əlini Cavadın çiyninə qoydu.

– Ölməyimi fikirləşirəm.

– Biz ölmürük, biz şəhid oluruq. Nəyini fikirləşirsən?

– İstəyirəm, ürəyimdən vurulum. Hətta sən görsən, başımdan vurulmuşam, birin də sən vur ürəyimə. Əlin titrəməsin heç, ən yaxın məsafədən çək silahı.

– Mən mərmimi vətən oğluna istifadə edə bilmərəm.

– Doğurdan, müharibə olacaq?

– Qorxursan?

– Axmaq olma, biz...

– Biz Xüsusi təyinatlıyıq, bilirəm, kişi. Biz nə isə deyə bilmərik, bizim işimiz vətənin çağırışına cavab verməkdir. Amma iyul ayında şəhid olanların, xüsusən də general Həşimovun qisası mütləq alınmalıdı. Onsuz o itlər yenə nəsə edəcəklər. Biz hazırlığımızı görək.

Nihat bir az susub əlavə etdi:

– Nə dərdin var sənin, bəlkə, gözləyənin var?

Nihatın heç düşünmədən verdiyi sual bir neçə saniyədəcə Cavadın sanki ömrünü söndürmüşdü:

– Yox, kimdi məni gözləyən?

– Yaxşı, ayə, artistlik eləmə. Biz bura ölməyə yox, öldürməyə gəlmişik. Ölümü düşünmə, öldürməyi düşün.

– Nə vaxt yola çıxarıq?

– Dəqiq bilinmir, biz sual verə bilmərik. Əmr veriləcək, gedəcəyik. Yeri yıxıl yat, sabah nəfəsimizi kəsəcək komandir.

– Gecən xeyrə.

– Xeyir apar.

Cavad yatağına uzandı. Əlini çarpayının nazik döşəyinin altında gəzdirib, balaca şəkli götürdü. Əzilmiş şəkildən ona yorğun baxışlı, ağsaçlı bir kişi gülümsəyirdi. Cavad yaşı artdıqca şəkildəki kişiyə bənzədiyini başa düşürdü. Qocalmaq heç belə xoş gəlməzdi insana.

Günlər bir-birini qovmağa başlamışdı. Qorxu, hirs, ümid, nifrət qarışmışdı havaya. Silahlar, tanklar, taktiki raketlər, ağır artilleriyalar hazırlanmışdı. Hətta onlar əsgərlərdən əvvəl çıxmışdı yola. Gecələr, gündüzlər sanki bir-biri ilə vuruşurdu. Hərbi hissə ilə vidalaşmaq vaxtıydı. Yataqlar, əşyalar toplanmışdı. Hər kəs son dəfə öz çarpayısına baxdı. Amma bir çoxu bilirdi ki, müharibənin sonunda çoxunun yatağının örtüyü şanlı bayraq olacaqdı, üzərində də iki qərənfillə... Sanki əsgərlər ruhlarını da elə orda qoyub gedirdilər və hər kəs özüylə sağollaşırdı...

**27.09.2020**

Cəbhəyanı bölgələrdə yaşayanlar o gün hər şeyi unutmuşdular sanki. Göy üzündə uçan vertolyotlar, uzaqdan eşitdikləri, amma ən yaxınlarında hiss etdikləri partlayış səsləri onlara hər şeyi izah edirdi. Əsgərlərə dua edənlərlə düşmənə qarğış edənlərin səsləri toqquşurdu küçələrdə. Dünən hər kiçik şey üstündə dalaşan qonşuların belə yadına düşmənçilik düşmürdü. Cəbhədəki vəziyyətin tam əksi bir mənzərə var idi hər yerdə. Bəlkə də, kədəri, qorxunu, ölümü, Allah buna görə yaratmışdı. Ya ölümsüz olsaydı insanlar? Onda düşmənliyin sonu olardımı yer üzündə? Sevgi də, eşq də hardasa bir yerdə tükənir. Amma bəs ölüm olmasaydı necə, bağışlanardımı ən xırda səhvlər? Deyilməmiş söz qalmazdı. Bəs ürək qırmaqdan qorxan kim olardı? Etiraf edilməmiş neçə min eşq yığışardı üst-üstə. Həyat necə mənasız olardı, ölüm olmasaydı... Amma ölüm ən çox əsgər analarını qorxutmuşdu o gün. Yol kənarında illərlə dindirmədiyi bacısını qucaqlayıb fəryad edən ana varıydı. Naləsi nə vətənəydi, nə Allaha. Qürurla kədəri qarışmışdı onun da bir-birinə. Nə deyib ağlamalı olduğunu da bilmirdi. Düşməni saydığı bacısından yapışmışdı, ancaq onda sakitləşə bilirdi.

O günün üstündən illər keçəcək ... Amma insanlar yenə də öz doğmalarını incitmədən yaşaya bilməcəyəklər... Elə məhz buna görə insanları doğma edən daşıdıqları qan deyil, ürəkləridir. Amma bəzi

ürəklər, sadəcə, döyünmək funksiyasını yerinə yetirə bilir. Sanki bir-birinə dəyən daşların çıxara bildiyi mənasız səslərdir o döyüntülər. Daşdan olan bir qəlb duymaz ki, qardaş kimdir... Elə Cavadın atası da illər əvvəl qardaşından səssiz- səmirsiz qopmuşdu. Qəlbindəki səs-küy dilinə yansıya bilməmişdi. Onsuz da bəzi hisslər var ki, onları dilə gətirmək olmur. Yaxşı ki, olmur. İnsan qardaş xəyanətini necə izah etsin axı? Hansı cümlə izah edə bilər o qırğınlığı? Duyğular beləcə yadlaşdı, vəhşiləşdi zamanla. Uşaqlıq xatirələri, gənclik illəri, ana-ata əmanəti bir kağız parçasına asanlıqla dəyişilə bilirdi...

...Düşmən ordusu atəşkəsi dəfələrlə pozmuşdu. Mülki şəxslərə atəş açılmağa başlamışdı. Həmin gün də cəbhə boyu əməliyyatlara başlamışdı düşmən tərəf daha böyük torpaqlar ələ keçirmək iştahası ilə... Azərbaycan Ordusunun illərlə gözlənilən əks-hücumu nəticəsində müharibə başlamışdı. Düşmən tərəfin ölüm sayı üzlərdə nə qədər sevinc yaratsa da, hər şəhid məzarıyla bu tayda da bir ev ölürdü.

Cavad yerində atılıb-düşən, rinqə çıxmağı həvəs və qəzəblə gözləyən döyüşçülər kimiydi. Beynində min cür ssenari qururdu. Şəhid xəbərləri gəldikcə irəliyə atılmaq istəyini boğa bilmirdi. Evində ata yolu gözləyən uşaqların, sevgilisini gözləyən xanımların, oğlunu gözləyən anaların fəryadı Cavadın qulağını dəlirdi sanki. Onun ki heç kimi yoxuydu, ən başda

o getməliydi. Elə ilk gün Füzuli və Cəbrayıl rayonlarının bir neçə kəndində onun da mənsub olduğu Xüsusi təyinatlıların seçilmiş bölükləri Azərbaycan bayrağını dalğalandırmışdı. Ağdərə və Murovdağ yüksəklikləri uğrunda qızğın döyüşlər başlamış, bəzi uğurlar qazanılmışdı da. Amma Cavadın olduğu bölüyə hələ döyüş tapşırığı verilməmişdi. Hər saniyəsini ölümdən sonrakı həyatını düşünərək keçirirdi. Bilirdi ki, orada görəcəyi, görüb utanacağı, dilinə gətirməsə də, darıxdığı bir cüt göz var...

Hərbi hissəyə gətirilən yaralılara hərə bir tərəfdən kömək edirdi. Yarası ağır olmayanları hospitala aparmırdılar. Xidmətin ilk günlərini birlikdə keçirdiyi Kərəmin yarasını sarımaq Cavada həvalə olunmuşdu. Qəlpə oğlanın çiynini sıyırmışdı. Cavad ehtiyatla yaranı təmizləyir, bir yandan da suallar verirdi:

– Çoxdular, azdılar? Qorxurlar, hə? Şəhidimiz çoxdu? Gözləyənin var?

– Bizdən çoxdular, amma bu heç nəyi dəyişmir. Qələbə bizimdi, qardaş! Gözləyənim var, məktub yazıb qoymuşam cibimə. Şəhid olsam, anama çatdırarsan. Çalış məndən əvvəl şəhid olma. Məktub sənə əmanətim oldu artıq.

– Təkrar qayıdacaqsan?

– Əlbəttə!

– Bizi niyə çağırmırlar axı?